

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 210 (23.372)

*7 noyabr 2019-cu il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə Azərbaycan Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və yeni suvarılacaq torpaqların suvarma suyu ilə təmin edilməsi, eləcə də əhalinin içməli suya tələbatının ödənilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilmiş, su anbarları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Hazırda bu işlər uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 2 250 000 (iki milyon iki yüz əlli min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 noyabr 2019-cu il*

## Sənaye məhəllələri yeni layihələrə yol açır

***Ölkəmizin ümumi daxili məhsulunda qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması və bu istiqamətdə ixracın daha da genişləndirilməsi son illərin iqtisadi hədəflərindən biri kimi qarşıya qoyulub. Sürətli iqtisadi islahatların aparılması, yeni investisiyaların cəlbi üçün təşviqedici tədbirlərin görülməsi, bütövlükdə, ölkə miqyasında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da arzuedilən nəticələrin əldə olunmasına imkanlar yaradıb. Belə ki, sənayenin, xüsusən yüksək əmək və elmtutumlu sənaye sahələrinin genişləndirilməsi yolu ilə son məhsulun hazırlanması və məşğulluğun təmin olunması prioritet sahə kimi diqqətdə saxlanılır. Ölkə Prezidenti cənab İlham Əliyevin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə qəbul edilmiş Şərur Sənaye Məhəlləsinin yaradılması haqqındakı qərar da bu baxımdan Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının daha da şaxələndirilməsi və ixrac potensialının artırılması məqsədinə xidmət edir.***



Sənaye məhəllələri dünya praktikasında uğurla tətbiq olunan və fəaliyyətindən çox sayda müsbət nəticələr gözlənilən bir ərazidir. Belə ərazilər regiona xas müxtəlif növ sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün zəruri olan bütün infrastruktur şəraiti ilə təmin edilir. Bu zaman infrastruktur xərcləri kiçik və ortaölçülü sahibkarlar tərəfindən yaradılan adi sənaye müəssisələrinin xərcləri ilə müqayisədə əhəmiyyətli dərəcədə az olur, kooperasiya əlaqələri isə daha da dərinləşdirilir. Belə ərazilərdə istehsalın təşkilinin daha səmərəli olmasını və rəqabətqabiliyyətli məhsul istehsalı üçün minimum resursların mövcudluğunu nəzərə alaraq ölkəmizdə sənaye məhəllələrinin yaradılması, idarə edilməsi və burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi üzrə qanunvericilik bazası yaradılmış, ötən dövrdə uğurlu nəticələr əldə olunmuşdur. Çünki dövlətimiz həyata keçirdiyi iqtisadi siyasətin tərkib hissəsi kimi regionların tarazlı inkişafına nail olmaq, yerli resursları iqtisadi dövriyyəyə cəlb etməklə yeni istehsal sahələri üzrə əmək vərdişləri və təcrübə formalaşdırmaqda davamlılığı təmin etməyi qarşıya məqsəd qoyub. Dünya təcrübəsində daha çox startaptipli layihələr üzrə işləyən müəssisələrin yerləşdiyi belə ərazilərdə innovasiyaların tətbiqi və ixracyönümlü əmtəələrin çeşidinin artırılması əsas biznes hədəfi kimi qarşıya qoyulub. Bunu nəzərə alaraq qeyd edə bilərik ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda sənaye məhəllələri vasitəsilə ixtisaslaşmış əməyin tətbiqinə geniş meydan açılması nəzərdə tutulur.

Sənaye məhəllələrinin yaradılması və idarə olunması ekoloji tarazlığa zərər vurmadan xammal, kapital və əmək ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb olunmasında əlverişli imkanlar təklif edir. Bundan əlavə, sənaye məhəllələrində fəaliyyət göstərən rezidentlər öz biznesi üçün zəruri istehsal vasitələri ilə özlərini təmin etdikləri halda dövlət siyasətinə uyğun olaraq belə ərazilərdə yalnız yüksəkkeyfiyyətli, innovativ tələblərə uyğun olan istehsal vasitələrinin tətbiqinə üstünlük verilir. Bu mənada, Şərur Sənaye Məhəlləsinin yaradılması ideyası, bütövlükdə, Naxçıvan Muxtar Respublikasının müasir inkişaf mərhələsində iqtisadi və sosial sahədə əldə olunmuş uğurlu nəticələr, infrastruktur sahələrinin genişlənməsi və əhali gəlirlərinin artması ilə paralel olaraq meydana gəlib. Naxçıvan Muxtar Respublikasının ən böyük rayonu olan Şərurda belə layihələrin reallaşması isə tarixi ənənələrlə yanaşı, sosial-iqtisadi inkişaf göstəriciləri üzrə də məqsədəuyğundur. Belə ki, ölkəmizin inkişaf edən bir iqtisadi regionu kimi Naxçıvan Muxtar Respublikasında sahələr arasında proporsiyalı artım tempinin yaranması və bunun da nəticəsində diyarın investisiya cazibədarlığının yüksəlməsi bu məsələdə mühüm rol oynayır. Halbuki keçmiş sovet dönəmində ucqar bir region kimi dar çərçivəli sənayeləşmə aparılan Naxçıvanda əhali tələbatlarının ödənilməsi üçün idxal məhsullar üstünlük təşkil etmişdi. Digər bir tərəfdən, Naxçıvan Muxtar Respublikasına ölkəmizin paytaxtından və başqa ölkələrdən gətirilən sənaye məhsullarının maya dəyəri xərcləri kifayət qədər çox olduğundan bu, əhalinin alıcılıq qabiliyyətinin azalmasına və dolayısı ilə yerli məhsulların daxili bazarda satışına da mənfi təsir edir, rəqabət qabiliyyətliliyi aşağı salırdı.

Bildiyimiz kimi, qloballaşmanın tələbi ilə bu gün əhali istehlakında daha müasir və yeni standartlara cavab verə bilən hər cür hazır məhsullara olan tələbat artmaqdadır. Sənaye məhəlləsi timsalında belə məsələlərin həll olunması isə istehsalçıların innovasiyalara açıq olmasına və dünya bazarının tələblərinə daha çevik uyğunlaşmasına imkan yaradır. Şərur Sənaye Məhəlləsinə gəldikdə isə burada qeyd olunan faktorlarla yanaşı, bölgənin özünəməxsus coğrafi mövqeyi və inkişaf göstəricilərinə istinad edərək təhlil aparmaq və müvafiq proqnozlar vermək mümkündür. İlk olaraq Naxçıvan Muxtar Respublikasının ən böyük rayonu olan Şərurda müxtəlif növdə və çeşiddə sənaye məhsullarının istehsalı üçün güclü xammal bazası yaradan torpaq ehtiyatlarının və burada məşğulluğu təmin etmiş insan resurslarını təhlil üçün baza ola bilər. Münbit torpaqlarından il ərzində iki dəfə məhsul əldə olunan Şərurda müasir avadanlıqlarla təmin edilmiş sənaye müəssisələrində işləyə biləcək təhsilli kadrlar da mövcuddur. Bu, son onilliklər ərzində muxtar respublikamızda təhsilin inkişafı istiqamətində görülmüş işlərin və xüsusən də ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə gənclərdə praktik təcrübələrin daha da dərinləşməsinin nəticəsində mümkün olub. Müasir dövrdə innovasiyaya meyilli yeni sahibkarların da meydana gəlməsi və onların fəaliyyətinin dəstəklənməsi üçün də sənaye məhəlləsi geniş perspektivlər vəd edir.

Şərurun müasir inkişaf mərhələsində onun sənaye məhəlləsinə qovuşması üçün mövcud göstəricilər də əsas çəkiyə malikdir. Belə ki, yaxın keçmişə dair rəqəmlərə nəzər saldıqda, Şərur rayonu üzrə sənaye məhsulu istehsalı həcminin 2002-ci ildəki 3 milyon 64,6 min manat göstəricidən 2018-ci ildə 94 milyon 232,7 min manat göstəriciyə çatanaq, təxminən, 31 dəfə artması buradakı böyük potensialdan xəbər verir. Rayon üzrə sənaye sahəsində çalışan işçi sayının 2003-cü ildən 2018-ci ilədək 279 nəfərdən 3318 nəfərədək artması, bu dövrdə əməkhaqqının isə, təxminən, 4,3 dəfə artaraq 87,2 manatdan 373,9 manata çatması başqa bir keyfiyyət göstəriciləri kimi diqqəti cəlb edir. Eləcə də son iyirmi ilə yaxın müddətdə Şərurda sənaye məhsulu üçün xammal kimi istifadə olunan bitkiçilik, heyvandarlıq və arıçılıq məhsulları istehsalında müşahidə olunan dəfələrlə artım da bu istiqamətə yeni iqtisadi layihələrin reallaşdırılması üçün əlverişli baza formalaşdırır. Rayonda içməli su, kanalizasiya, enerji, yol və nəqliyyat infrastrukturunun yüksək səviyyəsi, insan resursları üzrə muxtar respublika bölgələri arasında ilk sırada olması da bu bazanı zənginləşdirən amillərdəndir.

Sənaye elmdə əldə olunmuş biliklərin təcrübi olaraq sınaqdan keçirmək üçün ən yaxşı sahədir. Bu mənada, sənaye məhəllələri elm və istehsalat əməkdaşlığının dərinləşdirilməsi, müxtəlif istiqamətlər üzrə elmi-tədqiqat işlərinin aparılması üçün çox əlverişli maddi-texniki baza formalaşdırır. Belə ərazilər konkret nəticələr əldə etməyi qarşısına məqsəd qoymuş elm adamları, yeni ideya müəllifləri, alimlik dərəcəsi almaq üçün çalışan doktorantlar və həmçinin tələbələr üçün də maraq obyektidir. Bu baxımdan Şərur Sənaye Məhəlləsi gələcəkdə muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqlarında müvafiq ixtisasların tələbələri üçün istehsalat təcrübəsi məkanı da ola bilər. Belə ki, sənaye məhəllələri sənaye istehsal mərkəzi olmaqla bərabər, həm də innovasiya və texnologiya, tədristəlim, konsaltinq, informasiya, məlumat xidməti, marketinq-menecment, maliyyə, mühasibat, audit, sığorta və strateji araşdırmalar mərkəzi funksiyalarını da yerinə yetirir. Beləliklə, sənaye məhəlləsi yaradılması üzrə dünya təcrübəsində buradakı rezidentlərdən çox əks tərəflərin daha çox faydalandığını nəzərə alsaq, belə ideyaların nə qədər məhsuldar olacağını deyə bilərik.

Və nəhayət, sənaye məhəlləsi fəaliyyəti boyu yerləşdiyi inzibati ərazidə infrastrukturun mövcud vəziyyətinin qorunub saxlanılması, ərazidə abadlıq-quruculuq və yaşıllaşdırma işlərinə töhfə verməsi və sosial layihələrdə aktiv iştirakı ilə də seçilir. Şərur Sənaye Məhəlləsi həm də gələcəkdə muxtar respublikamızda vüsət almış quruculuq və yaşıllaşdırma tədbirlərinə töhfə verəcək.

**Əli CABBAROV**

## Muxtar respublikanın Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz 120,2 faiz icra edilib

Ödənilən hər bir vergi muxtar respublikanın sosial-iqtisadi inkişafına birbaşa təsir göstərən amillərdən biridir. Vergi intizamının və vergi mədəniyyətinin formalaşması, vətəndaşlarda vergi qanunvericiliyinə hörmətlə yanaşmaq bacarığı öz müsbət nəticələrini verməkdədir. 2019-cu ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz 120,2 faiz icra edilib. Daxil olmuş vəsaitlərin mənbəyinə gəldikdə isə onların 35,8 faizi dövlət sektorunun, 64,2 faizi isə özəl sektorun payına düşüb.

Azərbaycan Respublikasında yeni sığorta pensiya sisteminin qurulması məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinin əhalinin sosial müdafiəsi sahəsindəki rolunu daha da artırıb. Qeyd olunan dövrdə məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 162,4 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 150,6 faiz əməl edilib. İstər vergilər, istərsə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə proqnozlar bütün yerli vergi orqanları üzrə artıqlaması ilə icra edilib.

Muxtar respublikamızda özəl sektorun inkişafına dair bir çox əhəmiyyətli proqramlar qəbul edilib, sahibkarların normal və sərbəst fəaliyyəti üçün mühüm işlər görülüb, xüsusilə rayonlarda mikro, kiçik və orta sahibkarlıq fəaliyyətlərinin genişlənməsi bu sahədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Belə ki, Vergilər Nazirliyinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə oktyabr ayında 3 kommersiya hüquqi şəxs və 335 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 70,4 faizi muxtar respublika rayonlarının payına düşüb. Bütün bu müsbət nəticələr dövlətimizin özəl sektora göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

# Akademik İsa Həbibbəyli: “Alnıaçıq yaşamağı xoşbəxtlik hesab edirəm”

## “Naxçıvan mənim üçün “hər qapısı məmləkətim” olan müqəddəs diyardır”

*Onunla hər görüşü, hər söhbəti vətənpərvərlik, dövlətçilik, elmi dəyərlilik baxımından zəngin bir məktəb hesab edirəm. Alimliyi və aliliyi ilə, bütöv və kamil şəxsiyyət kimi çoxlarına örnək olan əsl vətənpərvər ziyalı! Naxçıvanşünaslığın konkret bir elmi istiqamət kimi inkişafında, ədəbiyyatşünaslıqda Azərbaycançılıq ideologiyasının müasir siyasi kontekstdə formalaşmasında, çağdaş mirzəcəlilşünaslıq elmi məktəbinin yeni müstəvidə və milli təfəkkür işığında pərvəriş tapmasında özünəməxsus xidmətləri olan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli!.. Böyük klassik şair Nizamidən dahi Mirzə Fətəliyə, ustad Mirzə Cəlilə, Məmməd Araza qədər tədqiq etdiyi bütün vətənpərvər, maarifpərvər siyasi-ədəbi irsin şəxsiyyət olaraq da ideal yaşadıcısı, layiqli varisi. Ruhuna, varlığına tarixdən müdriklik, şeiriyyət irsimizdən kövrəklik və həssaslıq, Mirzə Cəlil qələmindən həqiqətpərəstlik və əqidəlilik hopduran bir elm adamı, qələm və söz sahibi. Nəhayət, elmin enişli-yoxuşlu yollarında yaşıl işıq, mayak olduğu üçün çoxlarının həyat idealına çevrilən, ürəkdolusu əziz adamı kimi “bizim İsa müəllim” deyə müraciət etdiyi bir alim, müəllim! Yetmiş illik yubiley tədbirlərində Vətənə, xalqa, elm və təhsilə həsr olunmuş şərəfli və mənalı bir ömrün ziyasına, işığına toplaşaraq ondan bəhs etmək istədik. Əksinə, yenə də adəti üzrə İsa müəllimdən öyrəndik: elm və təhsilə fanatik maraq, dövlətçiliyə tükənməz sədaqət, Vətənə sonsuz sevgi…*

*Yaradıcılıq taleyimdə, elmi və əmək fəaliyyətimdə müstəsna rolu olan, qəlbimdəki “ƏSL MÜƏLLİM”, “QƏNİMƏT İNSAN” obrazının mənimlə bölüşdüklərini siz oxucularımıza da çatdırmağı mənəvi borc bildim.*



***– Hörmətli İsa müəllim, əvvəlcə icazə verin qəzetimizin kollektivi və çoxsaylı oxucuları adından sizi yubiley münasibətilə bir daha təbrik edim. Elmin zirvəsini fəth edən, kamillik məqamına yüksəlməklə müdriklik səlahiyyəti qazanan İsa Həbibbəylinin ömür yoluna nəzər saldıqda özünün gördükləri…***

– Çox sağ olun. Əvvəlcə onu deyim ki, fikrimcə, elmin zirvəsini fəth etmək mümkün deyil. Elm xalqların, ölkələrin zirvələrdən-zirvələrə doğru davamlı inkişaf prosesinin hərəkətverici qüvvəsidir. Elmin zirvəsinə çatmaq həyatın sonuna çatmaq demək olar. Elm hər addımda yeni zirvə müəyyən edir. Əsl elm adamının borcu və vəzifəsi ölkəsinin və xalqının qarşısında ən azı məşğul olduğu elmi istiqamətdə yeni hədəflərin üfüqlərini açmaqdan və üfüqlərdən-üfüqlərə doğru addımlamağın yollarını göstərməkdən ibarət olmalıdır. Zirvələrdən-zirvələrə, üfüqlərdən-üfüqlərə sözlərini həm irəliyə, gələcəyə, uğurlara, həm də dərinliklərə doğru əsaslı baxışlar kimi başa düşmək lazımdır. Dərinlikləri başa düşmək, dəyərləndirmək gələcəyə doğru inkişafı göstərmək üçün zəruri vacib şərtlərdəndir. Bunsuz inkişaf davamlı və dayanıqlı ola bilməz. Bu, həyatın da, elmin də, cəmiyyətin də dialektik inkişafının hərəkət mexanizmidir. Həyat üfüqlərdən-üfüqlərə doğru gedən yol, dərinliklər, dayanacaqlardır. Dayanıb nəfəs almaq lazımdır, lakin yerində saymaqla dərinlikləri aşmaq mümkün deyil. Əsl elm dayanacaqlardan davamlı inkişafa doğru təkamül prosesinin texnologiyasını müəyyən edən sistemli bir təlimdir. Keçmiş yola nəzər salanda bu yolun qət olunmasının kəşf edilməsindən də çətin olduğunu görürəm. Ən başlıcası tutduğun yola, idealına inamını möhkəm saxlamaq, ümidlə yaşamaq və yorulmadan çalışmaq və çalışmaq lazımdır.

***– Ömrünüzün, taleyinizin 60 ildən çoxu varlığınız qədər sevdiyiniz Naxçıvanla bağlıdır. Bu illər ərzində vətəndaşlıq mövqeyi ilə hər zaman seçilən, ictimai-siyasi fikrin inkişafında, elm, təhsil quruculuğunda özünəməxsus xidmətləri olan bir ictimai-siyasi xadim kimi Naxçıvanın bu gününü ölkə paytaxtından bütün reallıqları və təfərrüatları ilə daha dəqiq qiymətləndirə bilərsiniz.***

– Xatırlatmaq istərdim ki, müstəqilliyimizin ilk illərində ulu öndərimiz Heydər Əliyevin apardığı uzaqgörən siyasət ölkəmizi dərin faciəvi böhrandan xilas etdi, Azərbaycan özünün gələcək inkişafının əsas axarını tapa bildi. Əgər ümummilli lider xalqımızın xilaskarlıq missiyasını yerinə yetirməsəydi, bugünkü inkişaf, tərəqqi mənzərəsi mümkün olmayacaqdı. Görkəmli dövlət xadiminin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyətli və uzaqgörən fəaliyyəti nəticəsində Azərbaycan qısa zaman ərzində inkişaf etmiş ölkələr sırasına qoşulub, həyatın bütün sahələrinin, o cümlədən elm və təhsilin yüksək səviyyədə inkişafı təmin edilib. Məhz ulu öndər siyasətinin uğurlu davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada söz sahibi olan ölkələr sırasında yer alıb. Dünya liderləri arasında yüksək analitik təfəkkürü və qətiyyəti ilə seçilən ölkə Prezidenti cənab İlham Əliyev həm də dünya azərbaycanlılarının lideri missiyasını yüksək səviyyədə həyata keçirir. Son 25 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gördüyü böyük işlər nəticəsində qədim diyar da əsl inkişaf mərhələsinə qədəm qoyub, ordu quruculuğu, iqtisadiyyat, elm, təhsil sahələrində reallaşdırılan infrastruktur layihələri öz bəhrələrini verib.

Azərbaycanın ayrılmaz tərkib hissəsi ölkəmizin əsas elm və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda elmin, təhsilin və mədəniyyətin inkişafı digər sahələrdəki inkişafdan daha çox diqqət mərkəzindədir. Çünki cəmiyyətin bütün sahələrini böhrandan çıxarmaq və ya inkişaf etdirmək üçün elm, təhsil və mədəniyyət fizikada müəyyən edilmiş at gücünə malikdir. Bu nöqtədən baxanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 25 il bundan əvvəl indi tutduğu vəzifəyə seçilərkən bəyan etdiyi elm və təhsilin inkişafının prioritetliyi haqqındakı tezislərinin yalnız təhsil sisteminin deyil, bütövlükdə, Naxçıvanın hərtərəfli inkişafının hərəkətverici qüvvəsi olması demək olduğunu düşünmək lazım gəlir. Naxçıvanda inkişafın bütün sahələrində müəyyən bir sistem və ardıcıllıq var.

Fikrimizcə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ordu quruculuğuna üstünlük verməsi haqqındakı fikirləri də ordu ilə birlikdə həyatın bütün sahələrinin inkişaf etdirilməsinin mühüm əsaslarından biridir. Dədə Qorqud babamızın böyük uzaqgörənliklə dediyi kimi “Torpağı qorumasan, əkməyə dəyməz!”

Qızılqaya yüksəkliyinin fəth edilməsi, on bir min kilometr ərazinin düşmən mühasirəsindən azad edilməsi ordu quruculuğu sahəsindəki strategiyanın real nəticəsidir. Bakıdan Naxçıvana gələndə, demək olar ki, hər dəfə doğulduğum Danyeri kəndinə gedib, Qızılqayanın əzəmətinə qürurla tamaşa edirəm. Qızılqaya zirvəsindən işğal olunmuş ərazilərimizin azad olunacağına bəslədiyimiz ümidlərin üfüqlərinə nikbinliklə baxıram.

Naxçıvan Azərbaycanın Çənlibelidir. Doğulduğum Danyeri kəndinin ərazisində yerləşən Qızılqaya dağına hər dəfə qürurla baxıram.

***– Həyatınızın universiteti və ya universitet həyatınız… Bəs Naxçıvan təhsilinin bugünkü inkişaf səviyyəsi nələri vəd edir?***

– Mənim taleyimdə həyatımın universiteti ilə universitet həyatım bir-birini tamamlayır. Naxçıvan mənim həyat universitetimdir. Həyatın əsas universitetlərini Naxçıvanda keçmişəm.

Naxçıvan Dövlət Universiteti isə mənim taleyim və idealımdır. Mən bu ali məktəbdə tələbəlikdən rektorluğa qədər məsuliyyətli bir yol keçmişəm. Bu universitetin yeni inkişafı ilə bağlı hər bir xəbər məni çox sevindirir.

Həyatda və elmdə az-çox əldə etdiklərim üçün Naxçıvan məktəbinə borclu və minnətdaram. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov mükəmməl bir dövlət idarəçiliyi məktəbi yaratmışdır. Ümummilli lider Heydər Əliyev ideallarını sədaqətlə yaşadan, dövlət başçısının müdrik siyasətini uğurla həyata keçirən Ali Məclis Sədrinin formalaşdırdığı Naxçıvan dövlətçilik modeli əqidə bütövlüyü, məsuliyyət, əməli işlə bağlı mühüm prinsipləri özündə nümayiş etdirir. Həyatımın Naxçıvan dövlətçilik məktəbinin əsas qayəsi ümummilli liderimiz Heydər Əliyev ideallarına, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məqsədyönlü siyasətinə sədaqətlə xidmət etmək, ümumi inkişaf üçün öz borcunu dərindən başa düşmək və məsuliyyətlə çalışmaq deməkdir.

***– Məncə, elə İsa Həbibbəyli fenomeninin sirri “Yazmasam xəstələnər, oxumasam ölərəm” sözləri ilə ifadə edilən elmə təşnəliyindədir. Bəs bir alim-ziyalı kimi bugünkü gənclikdə elmə maraq, mütaliə həvəsi, araşdırıcılıq meyli, tədqiqatçı iradəsi sizi nə dərəcədə qane edir?***

– Doğrudan da, yazıb-oxumaqsız həyatımı təsəvvür etmirəm. Bu, artıq mənim həyat tərzimdir. Onu da deməliyəm ki, həyatı, cəmiyyəti dərk edə-edə oxumaq, düşünərək mütaliə etmək, nəticələr çıxarmaq çox vacibdir. Son vaxtlar Bakıda Mirzə Fətəli Axundzadə Kitabxanasında, Akademiyanın Mərkəzi Elmi Kitabxanasında qiraət zallarını dolu görürəm. Akademiya sistemində yeni istedadlı nəslin gəldiyini müşahidə edirəm. Muxtar respublikada da Ali Məclis Sədrinin oxunması zəruri olan kitablarla bağlı imzaladığı sərəncamdan sonra elmə, təhsilə və mütaliəyə maraq nəzərəçarpacaq dərəcədə artıb. Bu, çox sevindirici haldır. Gəncliyə dəstək verməyi, yol açmağı çox vacib sayıram və var gücümlə bu sahəyə diqqət yetirməyə çalışıram. Bu sahədəki ümidsizlik artıq aradan qalxıb.

Lakin müasir gəncliyin birtərəfli şəkildə internet resurslarına aludəçilik göstərməsi məni narahat edir. Sosial şəbəkələrdən imtina etmədən, eyni zamanda kitablara, fundamental tədqiqatlara da müraciət etmək, istinad etmək, ortaq nəticələr çıxarmaq lazımdır.

***– Qədim diyarımızın ümumtürk ədəbiyyatına və mədəniyyətinə verdiyi töhfələrin üzə çıxarılması, tədqiqi zərurəti Naxçıvanşünaslıq elmi istiqaməti qarşısında hansı mühüm vəzifələri müəyyənləşdirir?***

– Azərbaycançılıq ideya, azərbaycanşünaslıq isə elmdir. Naxçıvanşünaslıq azərbaycanşünaslığın üzvü tərkib hissəsidir. Naxçıvanşünaslıq Azərbaycan elminin Naxçıvan məktəbi deməkdir. Naxçıvanşünaslığı təmsil edən elm adamı üçün professional tədqiqatçılıqla vətənpərvərlik və dövlətçilik bir-birini tamamlayan dəyərlərdir. Harada yaşamasından asılı olmayaraq, hər bir elm adamı üçün bu amillər əsas meyarlardır. Lakin əhatə etdiyi çətin və mürəkkəb coğrafiya, geniş mənada, Azərbaycançılığı Naxçıvanşünaslığın zəruri şərtinə çevirib. Azərbaycançılığa dərin sədaqət Naxçıvanda yaşayıb-yaradan elm adamının taleyi və idealıdır.

Hazırda Naxçıvanda yüksək hazırlıqlı yeni elmi nəsil formalaşmaqdadır. Fikrimcə, Naxçıvanın sivilizasiya proseslərindəki rolu istiqamətində aparılan tədqiqatları daha da genişləndirmək və həmin tədqiqatların nəticələrini dünya dillərinə tərcümə edib yaymağa ehtiyac var. Naxçıvanda sivilizasiyalarla əlaqədar aparılan tədqiqatlar dünya elminin tərkib hissəsidir. Hesab edirəm ki, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, mərhum Qadir Qədirzadənin Həzrəti Nuh Peyğəmbər və “Dünya tufanı” hadisəsi ilə əlaqəli şəkildə Naxçıvana həsr etdiyi elmi əsərlər ölkə hüdudlarından kənara çıxarmağa layiq tədqiqatlardır.

Azərbaycanın dövlətçilik tarixində və taleyində Naxçıvanın rolu haqqındakı araşdırmalar müstəqil dövlətçilik təfəkkürünün daha da dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət etməsi baxımından müasir dövrümüz üçün son dərəcə əhəmiyyətlidir. Nemətullah Naxçıvani araşdırmaları göstərdi ki, qədim diyarın tarixində açılmamış səhifələr çoxdur. Bu xətti davam etdirməyə ehtiyac vardır.

Naxçıvan Muxtar Respublikasında yaranan elm bu diyarın sosial-iqtisadi inkişafına kömək etməli, proqnozlar hazırlamalıdır.

Çox arzu edərdim ki, Naxçıvanda yeni elmi nəsil məşhur Nəsirəddin Tusinin, akademik Yusif Məmmədəliyevin dəqiq və təbiət elmlərinə həsr edilmiş yolunu davam etdirməyə də diqqət yetirsin.

***– Müasir Naxçıvan ədəbi mühitində yaradıcılıq axtarışlarının hansı istiqamətdə inkişaf etdirilməsini vacib sayırsınız?***

– Bütün dövrlərdə Naxçıvanda Azərbaycan ədəbiyyatının görkəmli simaları yetişib formalaşmışdır. Bu qədim diyar Azərbaycan ədəbiyyatına böyük demokrat Cəlil Məmmədquluzadəni, romantik sənətkar Hüseyn Cavidi, tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadini, maarifçi şair Məhəmməd Tağı Sidqini, vətəndaşlıq lirikasının böyük siması Məmməd Arazı bəxş etmişdir. Bu yolu uğurla davam etdirmək üçün böyük istedadla yanaşı, böyük zəhmət də vacibdir. Dünya ədəbiyyatını da yaradıcı şəkildə öyrənmək lazımdır. Naxçıvanda yaşayıb-yaradan ədəbi nəsil böyük ədəbiyyatın inkişaf etdirilməsi yolunda səylə çalışmaqdadır.

Bununla belə, Naxçıvanın tarixi taleyini və müasir simasını malik olduğu səviyyədə Azərbaycan oxucusuna göstərmək üçün yaradıcı qüvvələr orijinal bədii vasitələrdən istifadə etməli, cəlbedici və düşündürücü əsərlər yazmalıdırlar.

***– Mətbuatı ictimai-siyasi prosesləri, ədəbi-mədəni hadisələri əks etdirən, yeni yaradıcı qüvvələri yetişdirib formalaşdıran mühüm bir sahə kimi qiymətləndirən akademik İsa Həbibbəylinin taleyində “Şərq qapısı”nın yeri və rolu.***

– “Şərq qapısı” qəzeti Azərbaycanda davamlı ənənələri ilə seçilən, sabit və inkişafda olan mətbuat orqanlarından biridir. “Şərq qapısı” Naxçıvan Muxtar Respublikasının mətbuat məktəbidir. Muxtar respublikanın digər mətbuat orqanları, o cümlədən Naxçıvan radio və televiziyası da “Şərq qapısı”nın “övladları”dır. Naxçıvanda yaradıcı qüvvələrin inkişafında “Şərq qapısı”nın mühüm rolu vardır. “Şərq qapısı” qəzeti mənim üçün əsl məktəb funksiyasını yerinə yetirib. Yazı-pozu vərdişləri qazanmaq, gənclik illərindən etibarən özünü ifadə etmək baxımından bu mətbuat orqanı yaradıcı gəncliyə, o cümlədən mənə geniş meydan açıb. Hesab edirəm ki, “Şərq qapısı” qəzeti indi də gənc qələmlərin etibarlı bələdçisidir.

Son illərdə “Şərq qapısı” qəzetində publisistikanın səviyyəsinin yüksəldilməsini, jurnalistikanın müxtəlif janrlarına müraciətin genişləndiyini müşahidə edirəm. Bunlar qəzetçilik baxımından çox müsbət meyillər və yaxşı nəticələrdir.

***– Naxçıvana budəfəki gəlişiniz – yubiley təmtəraqlı, yetmişillik mənalı və şərəfli bir ömrün hesabatına çevrildi. Naxçıvan üçün, universitetimiz üçün darıxmırsınız ki? Naxçıvandakı ən çox sevdiyiniz yer haradır?***

– Doğulduğum diyarda keçirilən tədbirlər mənim üçün böyük dərs oldu. El-obanın dərin etibarını görmək adamın yaşayıb-yaratmaq əzminə dəstək və qüvvət verdiyi kimi, məsuliyyətini də artırır. Allah ömür versin ki, borcumuzu yerinə yetirə biləк…

Həyatımın böyük bir dövrü Naxçıvanda keçib. Naxçıvanda heyranlıqla baxmadığım bir məkan yoxdur. Bir mahnıda deyildiyi kimi, Naxçıvan mənim üçün “hər qapısı məmləkətim” olan müqəddəs diyardır.

Tam səmimiyyətlə deyirəm: İçimdən Arpaçay axır.

Belə bir müdrik kəlam var: Elmin vətəni yoxdur, ancaq alimin vətəni var. Çalışıram ki, ölkəmiz və doğulduğum torpaq qarşısında alnıaçıq olum. Alnıaçıq yaşamağı xoşbəxtlik hesab edirəm.

***– Səmimi və maraqlı müsahibə üçün çox sağ olun.***

**Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

Naxçıvan media nümayəndələrinin gözü ilə

# Bu şəhərə getmədən "Dünyanı görmüşəm" deməyin – Səkkizinci möcüzə

*Həyat qısa deyil, məna qatdığımız günlər azdır. Ömrümün ən mənalı üç günü Naxçıvanda keçdi. Üç gündə həm mənəvi saflığın ətrini duydum, həm də korlanmamış təbiəti ciyərlərimə çəkdim.*



### "Yol yaxşıdır"

Yəhudidən soruşublar, Bakı yaxşıdır, yoxsa Təl-Əviv? Cavab verir: Yol yaxşıdır.

Naxçıvan, yoxsa Bakı sualı verilsə, cavab verərəm ki, yol yaxşıdır. O yol ki bizi birləşdirir, bir edir. O yol ki hər cür çətinliklərə dözdü, uzanmadı. Nə blokada şəraiti, nə düşmən hücumu Naxçıvanla Bakını bir-birindən uzaqlaşdıra bildi.



### Hər səhər yuyulan yollar

Yollar şəhərlərin qan damarıdır. Naxçıvanın yollarına gəlincə, təkcə şəhərin mərkəzi yox, ucqar dağ kəndində də asfalt yollar çəkilib. İstər şəhərin mərkəzi olsun, istərsə ən ucqar bölgəsi, ərazidəki yaşıllığın sayı azalmır. Şəhər mütəmadi təmizləndiyinə görə burada xəzəli yalnız ağacların altında görmək mümkündür.

### Qərbi Azərbaycan torpaqları bir addımlıqda...

Şahbuz rayonu, Biçənək kəndi. Şimal tərəfdən Şahbuz rayonunun sonuncu yaşayış məntəqəsi (Bu kənddən sonra Qərbi Azərbaycanın işğalda olan əraziləri başlayır).

Ömrün üç gününə bacardığım qədər daha çox gözəllik sığdırmağa çalışırdım.



### Batabat, məşhur Üzən ada

Azərbaycana, Naxçıvana yox, dünyaya gələn hər insan bu gözəlliyi mütləq görməlidir.



Məşhur Üzən ada dillər əzbəridir. Deyilənə görə, ada hətta gündə bir neçə dəfə dayandığı yeri dəyişir.

### Yüz illər sirri çözülməyən Əshabi-Kəhf

Hər əfsanənin mütləq real tarixçəsi var. Rəvayətə görə, hökmdar Dağ Yunis bütlərə tapınır. Vəziri Təmirxan bunu qəbul edə bilmir, dostları ilə birlikdə dağlara sığınır. Yeddi nəfər bu qayalıqlarda gizlənir və yuxuya gedir. Yuxudan ayılıb, şəhərə çıxan Təmirxanın əlindəki pullar üç yüz il əvvəl hökmdarlıq edən Dağ Yunisə aid idi. Təmirxan şəhər camaatını inandırmaq üçün onları qayalığa gətirir. Baş verənlərdən xəbər tutan dostlar əllərini göyə açıb Allahdan onları daşa döndərməyi istəyirlər.





Hər il yerli və xarici turistlər insanların müqəddəs hesab etdiyi Əshabi-Kəhfə gəlirlər. Bu əfsanəyə inanan da, inanmayan da Əshabi-Kəhfin ən ucqar nöqtəsinə, gündoğana qalxır.

İnancınızdan asılı olmayaraq, Əshabi-Kəhfə gəlin. Gündəlik həyatın qarışıqlığından, iş-gücün verdiyi sıxıntıdan burada arının.

*Əlincə,*
*Əlim sənin boz daşına varınca*

*Həsrətimi iki yerə bölüncə*
*Yolun tutum, mən gedəyim ardınca*
*Sağda Ağrı, solda Güney sənindir*
*Arzuların, gələcəyin mənimdir.*

Dünyanın səkkizinci möcüzəsi, tarixi haqda bir neçə versiya olan, əyilməzlik, saflıq rəmzi Əlincə. Əlincəyə çıxmaq üçün iki mindən çox pillə qalxmalısan. Hər pillədə, sanki fərqli bir ayin icra edirsən. Hər pillədə daxili rahatlıq, təmizliyə çatırsan. Zirvəsinə qalxdınmı, dünya sənindir. Dünyanı ovcunun içində görəcəksən. Tikintisi, bəlkə də, onillikləri alan Əlincə istehkam, müdafiə, həm də azadlıq rəmzidir. Əlincədən özünü də, göz işlədikcə işğal altında olan Azərbaycan torpaqlarını da azad hiss edəcəksən.

Çinin "Dunxuan" adlı səhra şəhəri var.



Şəhər bir zamanlar adi səhralıqdan ibarət olub. Dunxuanın yeganə özəlliyi odur ki, Çin Səddi bu şəhərdən başlayır. Hər il milyonlarla turist bu səhranı, çölləri görmək üçün Çinə axın edir. Bu axından Çin milyonlar qazanır.

Naxçıvan da, Əlincə qalası da dünya turizmi üçün kəşf edilməyib. Tarix, əsalət qoxan Əlincəni bütün dünya tanımalıdır.

### Dağın altındakı şəfa...



Azərbaycanın Naxçıvan Muxtar Respublikasında unikal duz mağaraları yerləşir. Burada tənəffüs orqanları xəstəliklərindən uğurla sağalmaq mümkündür. Duzdağ mağaraları dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşir.



### Mənim evim yox, mənim şəhərim

İnsan sevdiyi, aşiq olduğu şəhərdə yaşamalıdır. Yalnız bu halda həmin şəhərə sahiblənirsən. Təkcə evini, öz kandarını yox, şəhərini də təmiz saxlayırsan. Naxçıvanı yalnız şəhərdə aidiyyəti qurumlar yox, sakinlər də təmizləyir. Məqsədli şəkildə küçələri gəzsəniz, zibil, plastik qablar, havada uçuşan sellofanlar tapa bilməzsiniz. Çünki adıçəkilənləri pəncərəsindən küçəyə atan yoxdur.

### Burada özgə malı kimsəyə lazım deyil

2015-ci ildə daxili işlər və prokurorluq orqanları üzrə cəmi 18 cinayət hadisəsi qeydə alınıb. 2017-ci ildə muxtar respublikada ən çox cinayət hadisəsi Naxçıvan şəhərində qeydə alınıb – 10 hadisə. 2018-ci ilin I yarısında Naxçıvanda cəmi 22 cinayət baş verib ki, bunun da 4-ü ağır və xüsusilə ağır cinayətdir.






2019-cu ilin I yarısında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayında 36 faiz azalma olub.

Türkiyədən olan jurnalist həmkarlardan biri əl çantasını mərkəzi küçələrdən birində unutmuşdu. Nə az, nə çox 2 saat sonra həmin yerə qayıdıb, çantasını olduğu kimi götürdü.



### Nizaminin Naxçıvanda reallaşan utopiyası

Naxçıvanda Nizaminin "İsgəndərnamə"sində arzuladığı cəmiyyət Naxçıvanda reallıqdır. Burada hamı və hər şey öz yerindədir. Layiq olan hamı öz dəyərini və qiymətini alıb.

### Gecəsi də, gündüzü də təhlükəsiz şəhər

Axşam saatlarında şəhərin istənilən küçəsində rahat gəzə bilərsiniz. Əmin olun ki, kimsə kənardan sizə atmaca atmayacaq, yaxınlaşmayacaq. Kömək lazım olsa, ünvan soruşsanız, hər cür kömək göstəriləcək.

### Nəhayət, möhtəşəm Saat Meydanı haqqında...



Səhərlər şəhər sakinlərini Üzeyir Hacıbəyovun əsərləri ilə salamlayan, analoqu dünyanın ən gözəl şəhərlərində olan Saat Meydanı. Gün ərzində klassik fransız musiqisi, axşamlar isə estradaya qulaq asmaq üçün ideal yer. Saat Meydanında tələbələr, gənclər, ailələr axşam saatlarında gəzişir, restoranlarda, kafelərdə vaxt keçirir. Özünüzü Azərbaycan sərhədlərini keçmədən, İtaliya, Fransa paytaxtlarında hiss etmək istəsəniz, Naxçıvanda Saat Meydanına gəlin.

### Muzeydə yaşayan Cəmşid bəyin ruhu...

Türk-Araz Respublikasının yarandığı, Cəmşid bəy Naxçıvanskinin doğulub, böyüdüyü bina. Burada Türk-Araz Cümhuriyyəti fəaliyyət göstərib. Muzey daha çox səliqəli əsilzadə evini xatırladır. Muzeydə Cəmşid bəyin ruhu yaşayır.

### "Azərbaycanın incisi"



Ulu öndər Ordubadı təsadüfən "Azərbaycanın incisi" adlandırmamışdı. Ordubadın ayrı ruhu, ayrı havası, ayrı enerjisi var. Meyvə bağları, qədim tikililər, məscidlər, yaşı yüzü keçmiş çinar ağaclarına ən gözəl ad elə "Azərbaycanın incisi" ola bilərdi.





### Mərmər, qranit yox, yaşıllıq parkı

Soyuq havada, axşam saatlarında belə, parkda gəzənlər, əylənənlər var idi. Naxçıvanın yeni parkındakı attraksionlar heç də Bakı bulvarından geri qalmırdı.

### "Oğlum Naxçıvanda xidmət etsin"

Anaların ən böyük sınağı Vətən sevgisi ilə övlad sevgisi arasında qalanda olur. Oğlunu əsgəri xidmətə yola salan anaları düşünün. Bir anadan eşitmişdim. Deyirdi ki, sanki ürəyimi çıxarıb, ağacdan asıblar. Hər an düşmənlə üz-üzə olan övladın anasının sıxıntısı təbiidir. Özü və övladı Bakıda doğulub böyüyən əsgər anası deyir ki, Çünki oğlum Naxçıvanda xidmətdədir. Əminəm ki, sağ-salamatdır. Qarnı tox, əyni istidir.

Bu, uğurun zirvəsidir. Ana əsgər oğlunu Naxçıvana etibar edir.

### Adətlərə sadiqlik

Azərbaycan dili, adətlər olduğu kimi qorunur. Bakıda, hətta müxtəlif bölgələrdə belə, unudulan adətlər dəyişdirilmədən Naxçıvanda yaşamaqdadır. Milli bayramlar, toy adətləri bir yana, qonşuluq münasibətləri uşaqlıqda nənələrimizdən gördüyümüz kimi qalmaqdadır.

Naxçıvan Dövlət Televiziya və Radiosu bu yolda əlindən gələni edir. Bəlkə də, folklorşünasların belə, unutduğu aşıq deyişmələrini Naxçıvan televiziyasının efirində görəndə heyran qaldım. Kaş ki hər şeyi reytinqə qurban vermək üçün yarışa girən televiziyalarımız da adətlərə, Azərbaycançılığa geri dönsün.

### Arxayınlıq, sabitlik...

Xəritəyə baxın. Naxçıvanın yerləşdiyi strateji nöqtəni təsəvvür etməyə çalışın. Vicdan və məsuliyyət hissiniz sizə güc gəlsin. Belə bir yerdə sabitlik asan başa gələn möcüzə deyil.

### Naxçıvanın ən böyük sərvəti...

Naxçıvanın ən böyük sərvəti insanlarıdır. Kənardan gələni xor görməyən, doğmasından ayırmayan, tikəsini böldüyü insanları. Naxçıvandan ayrılmaq istəməyən qızım Bakıya qayıdanda bir cümlə işlətdi: "Naxçıvanda bir nəfər də olsun, pis adam görmədim". On bir yaşlı uşağın hissləri heç vaxt yalan olmaz.

### Naxçıvanı kimlər sevmir?

Bu yaxınlarda mediada bir xəbər yayıldı. Evə oğurluğa girən şəxs axtardığını tapa bilmir. Evdən çıxanda ev yiyəsi üçün nalayiq ifadələr yazır. Naxçıvanı sevməyənlər də belə adamlardır. Bu torpaqdan oğurluq etmək istəyib edə bilməyənlər, tüfeyli həyata meyilli olanlar, işləməkdən, halal zəhmətdən uzaq adamlar Naxçıvanı sevmir. Pis əməllərinə meydan verilmədiyi üçün vərəqdə ev sahibinə söyüş yazan oğruya çevrilirlər.

### Bu, son deyil...

İşdən, şəhər həyatının qarışıqlığından, paytaxtın gərginliyindən qaçmaq istəyən kimi üz tutacağım tək ünvan Naxçıvan olacaq. Arınmaq, yenilənmək üçün Naxçıvana gedin.

***P.S: Naxçıvanın əhatə olunduğu bütün qədim Azərbaycan torpaqlarını maneəsiz, xarici pasportsuz gəzmək ümidi ilə...***

**Günay ARDA**
*Femida.Az*

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2019

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

– Azərbaycan Respublikasında bələdiyyə seçkilərində siyasi partiya və siyasi partiyaların blokları tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin irəli sürülməsi qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü, 212-ci və 214-cü maddələri ilə tənzimlənir.

**Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq namizədin və ya namizədlərin irəli sürülməsi haqqında qərarı səsvermə yolu ilə kollegial qaydada qəbul edir.**

– Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd və ya namizədlər bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

– Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

a) iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;

b) siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;

c) namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;

ç) qərarın qəbul edilməsi tarixi.

**Siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

- Siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;

- Siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

- Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;

- Hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş. Bu bildirişin surəti dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir.

– Bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş hər bir şəxsin məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir.

**Siyasi partiya, siyasi partiyaların bloku bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilərlər.**

- Səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanı iclasının) qərarı;

- Siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri;

- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı.

Siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verdiyi halda, bu barədə qərarın surəti Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyasına təqdim edilməlidir. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilir.

**Siyasi partiyalar bloku tərəfindən namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

- Siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd və ya namizədləri irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

- Siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

- Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri;

- Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları;

- Bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi;

- Hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş. Bu bildirişin surəti dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir.

Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir.

**Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:**

- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahıları;

- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq məktubları.

Mərkəzi Seçki Komissiyasında qeydə alındıqları zaman, habelə qeydə alındıqdan sonra səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilibsə, siyasi partiyalar bloku da müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir.

**Bələdiyyə üzvlüyünə namizədlər gəlirlərinin miqdarı, məbləği və mülkiyyət hüququ əsasında onlara məxsus olan əmlak haqqında məlumat verirlər**

**Bələdiyyə üzvlüyünə namizədə, namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları:**

- Namizədin müdafiəsi məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi dairə seçki komissiyası tərəfindən namizədə və ya səlahiyyətli nümayəndəyə bələdiyyə üzvlüyünə namizədin irəli sürülməsini təsdiq edən qərarın təqdim edildiyi gündən başlanır.

- İmza vərəqələri namizədə və ya səlahiyyətli nümayəndəyə verilərkən hər bir imza vərəqəsinin yuxarı sağ küncü dairə seçki komissiyasının möhürü ilə möhürlənməlidir.

- Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi nümunəyə uyğun olaraq namizədə və ya səlahiyyətli nümayəndəyə imza vərəqələri verilməsi barədə 2 nüsxədən ibarət akt tərtib edilməlidir. Tərtib olunmuş akt dairə seçki komissiyasının sədri, namizəd və ya səlahiyyətli nümayəndə tərəfindən imzalandıqdan sonra komissiyanın möhürü ilə təsdiqlənir.

- İmza vərəqələrini qəbul etməsi haqqında aktda namizədin və ya səlahiyyətli nümayəndənin, həmçinin dairə seçki komissiyası sədrinin soyadı, adı, atasının adı, verilən imza vərəqələrinin növü və sayı göstərilməlidir.

- Tərtib edilmiş akt imzalanaraq möhürləndikdən sonra onun bir nüsxəsi dairə seçki komissiyasında qalır, digər nüsxəsi isə imza vərəqələri ilə birlikdə namizədə və ya səlahiyyətli nümayəndəyə təqdim edilir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Azərbaycan komandası olimpiadanın qalibi olub







Xəbər verdiyimiz kimi, şahmatçılarımız Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbovun rəhbərliyi ilə Türkiyənin Çorum şəhərində keçirilən 16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasında iştirak ediblər. Azərbaycan komandası olimpiadanın qalibi olub. Komandamızın üzvü Aydın Süleymanlı fərdi nəticələrinə əsasən ikinci lövhədə ən çox xal toplamaqla qızıl, Əhməd Əhmədzadə isə üçüncü lövhədə gümüş medala layiq görülüblər. Yığmamız 16 xalla Rusiya, Çin, Ukrayna kimi güclü şahmat ölkələrinin təmsilçilərini geridə qoyub.

Şahmatçılarımız yarışın təntənəli bağlanış mərasiminə milli geyimdə qatılıblar. Komanda üzvlərinə və baş məşqçi Fərid Abbasova qızıl medal və çempion üçün hazırlanan kubok təqdim olunub.

Mükafatlandırma mərasimində iştirak edən Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim şahmatçılarımızı tarixi qələbə münasibətilə təbrik edib. Sonra şahmatçılarımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

## Karateçilərimiz Avropa çempionatından uğurlu nəticə ilə geri döndülər



1-3 noyabr tarixlərdə Makedoniyanın Skopiya şəhərində karate idman növü üzrə XI Avropa çempionatı keçirilib. Çempionatda 20 Avropa ölkəsindən 1500 nəfər idmançı iştirak edib. Onlar 3 kateqoriya üzrə (WKF, Şobu Nihon və Şobu Sanbon) mübarizə aparıblar.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası idmançıları da bu çempionatda iştirak ediblər. 7 idmançı 1 məşqçi müəllimlə yarışa qatılan komandamız 5 qızıl, 2 gümüş, 11 bürünc olmaqla, ümumilikdə, 18 medalla vətənə qayıdıblar. Belə ki, Rafiq Hüseynli 8-9 yaş qrupunda şəxsi döyüş üzrə 3 qızıl, Vüsal Seyidov 14-15 yaş qrupunda şəxsi döyüş üzrə 2 qızıl, 1 gümüş, komanda üzrə 1 bürünc, Aslan İsmayılov 16-17 yaş qrupunda şəxsi döyüş üzrə 1 bürünc, komanda üzrə 1 bürünc, Sərcan Məmmədov +18 yaş qrupunda şəxsi döyüş üzrə 2 bürünc, komanda üzrə 1 bürünc, Rəşad Qasımov 16-17 yaş qrupunda şəxsi döyüş üzrə 1 gümüş, komanda üzrə 1 bürünc, Nərgiz Həsənli 10-11 yaş qrupunda şəxsi döyüş üzrə 2 bürünc, Yaqub Qəmbərov 10-11 yaş qrupunda şəxsi döyüş üzrə 2 bürünc medal qazanıblar. Komanda hesabında isə Naxçıvan komandası III yerin sahibi olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Tədbir keçirilib

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması müxtəlif ailə təsərrüfatlarının yaradılması üçün yeni imkanlar açıb. Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonları üzrə, ümumilikdə, 13 nəfərə yanında balası olan iribuynuzlu, 2 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu, 2 nəfərə miniyerşumlayan, 1 nəfərə otbiçən aqreqat, 1 nəfərə tənəkəçi-rəngsaz alətləri, 1 nəfərə fotoaparat, 1 nəfərə isə pinəçi avadanlıqları alınaraq vətəndaşların istifadəsinə verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub, bu da həmin ailələrin sosial-rifah halının yaxşılaşmasına müsbət təsir edib.

Daha sonra aztəminatlı ailə təmsilçilərinə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Xalq-ordu birliyini özündə əks etdirən növbəti tədbir



*Əlahiddə Ümumqoşun Orduda xalq-ordu birliyini özündə əks etdirən növbəti tədbir keçirilib.*

Şərur rayonunun Sərxanlı kənd sakini Həsən Hüseynov tərəfindən hərbi hissəyə, ümumilikdə, 3 tondan artıq soğan təqdim edilib.

Tədbirdə dövlət qayğısından danışan hərbi hissənin zabiti Xəyyam Həsənov xalq-ordu birliyindən ruhlanaraq yüksək vətənpərvərlik hissi ilə xidmət etdiklərini bildirib.

Sonda gətirilmiş sovqat hərbi hissənin anbarına təhvil verilib.

Qeyd edək ki, muxtar respublikada kənd təsərrüfatı ilə məşğul olan sahibkarların hərbi hissələrə sovqat aparmaları artıq ənənə halını alıb.

**Nəriman NƏCƏFOV**

## İtmişdir

Quliyev Mehralı Hüseyn oğlunun adına olan JN-577^ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov İntiqam İsa oğlunun adına olan 7395 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Ağayev Rəcəb Əbdüləli oğlunun adına olan 6915 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Əsgərov Zahid Vasif oğlunun adına olan JN-1802 inventar nömrəli, 10206005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 770